# Əlahiddə Ümumqoşun Ordunun rabitə bölmələrində məşğələlər keçirilir

Muxtar respublikada yerləşən Əlahiddə Ümumqoşun Ordunun rabitə bölmələrində məşğələlər keçirilir.



Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, yaranmış mürəkkəb şəraitdə rabitənin təmin olunması ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə keçirilən məşğələlərdə səhra rabitə qovşağının ərazidə açılması praktiki olaraq məşq etdirilir.

İdarəetmənin təşkili üçün ərazidə açılmış dayaq və mobil radioqovşaqlardan gənc rabitəçilərin qərargahlararası məlumatlar mübadiləsini yüksək keyfiyyətlə yerinə yetirmə bacarıqları yoxlanılır.

Azərbaycan.- 2021.- 2 sentyabr.- S.4.